AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

# BAKI DÖVLƏT UNİVERSİTETİ

**İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin**

**2024-cü il üzrə illik**

# H E S A B A T I

**BAKI – 2024**

Bakı Dövlət Universitetinin (BDU) İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi Əsasnaməsi ilə müəyyən edilən səlahiyyətlər çərçivəsində Universitetin fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, informasiya təminatı, təbliğat-təşviqat işlərinin aparılması sahəsində işlərin təşkili və tənzimlənməsini həyata keçirir. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin əmr və sərəncamlarını, Bakı Dövlət Universitetinin Nizamnaməsini, BDU rektorunun əmr, sərəncam və göstərişlərini, Universitet Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur. Şöbə bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən BDU-nun struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.




Şöbənin **fəaliyyət istiqamətləri** Universitetin fəaliyyəti ilə bağlı ictimaiyyətin operativ və mütəmadi məlumatlandırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, Universitetin informasiya təminatının həyata keçirilməsi, təbliğat-təşviqat işlərinin aparılması, Universitetin fəaliyyətinin KİV-də dolğun və operativ işıqlandırılmasının təmin edilməsi, ictimaiyyətlə əlaqələrin dinamikasının, təbliğat-təşviqat işlərinin təhlillərinin aparılması, Universitetin struktur bölmələrinin KİV və ictimaiyyətlə əlaqələrinin koordinasiyalı təşkil olunmasına metodiki rəhbərliyin həyata keçirilməsindən ibarətdir.

Şöbə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq informasiya strategiyası, reklam və mətbuatla iş siyasətini, universitetin

ictimayyətlə əlaqələrinin düzgün koordinasiya və effektli idarə edilməsini, ictimaiyyətin BDU ilə bağlı informasiya ehtiyaclarının ödənilməsini və şəffaf universitet imicinin qorunmasını, inkişaf etdirilməsini təmin etmək məqsədi ilə fəaliyyət göstərir.

**Şöbənin vəzifələri** Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Universitetin ictimaiyyətlə əlaqələr strategiyasının (PR strategiyası) və siyasətinin qurulması sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirmək, İnformasiya xidmətinin təşkili - faktların informasiyalaşdırılması, mətbuatı hazır materiallarla təmin etmək, sorğuları cavablandırmaq, mətbuatın və televiziyanın çıxışlarını izləmək, lazım gəldikdə səhvləri və qüsurları dərhal təsbit etmək üçün tədbirlər görmək və yaxud təkziblər vermək, Universitetin informasiya bazasını yaratmaq, mətbuatda işıqlandırılmış materialları arxivləşdirmək, Universitetin struktur bölmələrinin ictimaiyyətlə əlaqələrini, təbliğat-təşviqat və maarifləndirmə işlərini koordinasiyalı təşkil etmək, əlaqələndirmək və həyata keçirmək, bu istiqamətdə mərkəzləşdirilmiş vahid yanaşmanı təmin etməkdən ibarətdir.

Mətbuat konfransları, brifinqlər, qəbullar, görüşlər təşkil etmək, mətbuatın fəaliyyətinin monitorinqini aparmaq, yerli və xarici mətbuatın Universitetin fəaliyyəti barədə dərc etdiyi və ya yaydığı informasiyalar barədə BDU əməkdaşlarını və tələbələri məlumatlandırmaq, Universitetin internet saytını, sosial şəbəkələrdəki rəsmi səhifələrini effektiv idarə etmək, struktur bölmələrinin internet saytını, sosial şəbəkələrdəki rəsmi səhifələrinin idarə edilməsinə nəzarət etmək, Universitetin fəaliyyəti ilə bağlı KİV-in, ictimaiyyətin sual və sorğularını  cavablandırmaq vəzifələr sırasındadır.

Şöbə həmçinin KİV-də BDU haqqında yayımlanan məlumatları toplamaq, sistemləşdirmək və arxivləşdirmək, Universitetin fəaliyyətinin KİV-də işıqlandırılması, şəffaflığın təmin olunması məqsədilə BDU tərəfindən görülmüş işlər barədə müvafiq məlumatların ictimaiyyətə çatdırılmasını təmin etmək, press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışlar və s. hazırlamaq, Universitet rəhbərliyinin və digər vəzifəli şəxslərinin KİV-də çıxışlarını, mətbuat konfranslarını, brifinqlərini, ictimaiyyətlə görüşlərini təşkil etmək, əlaqələndirmək və Universitet tərəfindən keçirilən tədbirlərdə KİV nümayəndələrinin iştirakını təmin etmək, Universitetin KİV-lə və ictimaiyyətlə əlaqələrində səmərəliliyin artırılmasına, bu sahədə mövcud münasibətlərin yaxşılaşdırılmasına dair mütəmadi təkliflər vermək işlərini də həyata keçirir.

Şöbənin tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparılır, onların fəaliyyəti əlaqələndirilir, əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edilir. Şöbə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədlərin təsdiq edilməsini təmin edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir. Əsasnamənin 1.2. bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncam sənədlərinin şöbə tərəfindən vaxtında və lazımi səviyyədə icrasını təmin edir. Şöbə daxil olan məktub, ərizə, şikayət və təkliflərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını, onların vaxtında və düzgün cavablandırılmasını təmin edir, kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir, şöbəni funksional fəaliyyətə uyğun olaraq universitet tədbirlərində təmsil edir.

BDU, onun fakültə və struktur bölmələrinin, tabeliyindəki qurumların fəaliyyəti ilə bağlı ictimai təşkilatlar, elm və təhsil müəssisələri, yaradıcı birliklər, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri ilə sıx və səmərəli əlaqələr yaradılıb, Universitetin tədris, təlim-tərbiyə prosesi, elmi fəaliyyəti və sosial həyatında baş verən yeniliklərlə, görülən işlər, perspektiv layihələrlə bağlı ictimaiyyətə müntəzəm operativ və dolğun məlumat verilib.

Şöbənin **informasiya təminatı** sistemli yerinə yetirilib, struktur bölmələrinin KİV və ictimaiyyətlə əlaqələri koordinasiya edilib, ictimaiyyətlə əlaqələrin dinamikasının, təbliğat-təşviqat işlərinin təhlilləri aparılıb. Faktlar informasiyalaşdırılıb, mətbuat və ictimaiyyətdən daxil olmuş sorğular cavablandırılıb, mətbuatın monitorinqi aparılıb. Universitetin üç dildə rəsmi internet səhifəsi, sosial şəbəkələrdəki rəsmi hesabları effektiv idarə edilib, Universitetdə aparılan islahatlar, ixtiralar, kafedra və laboratoriyaların fəaliyyəti ilə bağlı davamlı olaraq məqalələr mətbuatda dərc olunub.

İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi media ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyindən ölkədə fəaliyyət göstərən bütün televiziya, radio, informasiya agentlikləri, xəbər portalları, qəzet və jurnallarla sıx əməkdaşlıq edir. Universitet tədbirlərinə dəvət olunan jurnalistlər ictimai maraq kəsb edən informasiya ilə təmin olunurlar.

Hesabat dövründə şöbənin fəaliyyəti tam protokollaşdırılıb.

Hesabat dövründə Bakı Dövlət Universitetinin tədris, təlim-tərbiyə prosesi, elmi fəaliyyəti və sosial həyatında baş verən yeniliklərlə bağlı ölkənin AZƏRTAC, APA, Report, Trend, Olaylar, SİA kimi informasiya agentlikləri, “Azərbaycan”, “Xalq qəzeti”, “Respublika”,

“Azərbaycan müəllimi”, “525-ci qəzet”, “İki sahil”, “Olaylar”, “Şərq”, “Bakı xəbər” və s. kimi dövri mətbuat orqanlarında, Haqqın.az, Qafqazinfo.az, Oxu.az, Moderator.az, Afn.az, News24.az, Bakivaxti.az, Modern.az, Caliber.az, Tehsil.biz, Azedu.az, Muallim.edu.az, Tehsil-press.az, Azerforum.az, Azpress.az, Azadmedia.az, İnnews.az və s. portallarda, AzTV, İTV, ATV, REAL TV, ARB TV, ARB24, Xəzər TV, Space TV kimi nüfuzlu telekanallarda 10.000-dək müxtəlif tipli material işıqlandırılıb.

| BDU-da keçirilən tədbirləri işıqlandıran televiziyalar: | BDU-da keçirilən tədbirləri işıqlandıran digər KİV-lər: | |
|---|---|---|
| **AZTV** | **AZƏRTAC** | **1news.az** |
| **İctimai TV** | **APA** | **Modern.az** |
| **ARB TV** | **Report** | **Haqqın.az** |
| **ARB24 TV** | **Trend** | **Publika.az** |
| **Real TV** | **SİA** | **Qafqazinfo.az** |
| **ATV** | **Afn.az** | **“İki sahil” qəzeti** |
| **Xəzər TV** | **Bakivaxti.az** | **Bakixeber.az** |
| **Space TV** | **Azedu.az** | **Moderator.az** |
| **Təhsil TV** | **“Xalq” qəzeti** | **Tehsil-press.az** |
| **APA TV** | **Tehsil.biz** | **Herbiand.az** |
| | **Mektebgushesi.az** | **Edupress.az** |
| | **Faktor.az** | **525-ci qəzet** |
| | **Caliber.az** | **Azadmedia.az** |
| | **İnformator.az** | **Azpress.az** |
| | **İnnews.media.az** | **Azvision.az** |
| | **Oxu.az** | **“Bakı xəbər” qəzeti** |
| | **Lent.az** | **“Şərq” qəzeti** |
| | **Viziontv az** | **Baku.nyus.az** |

Bakı Dövlət Universitetinin **rəsmi saytı -** bsu.edu.az-da informasiya yayımını da İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi həyata keçirir. Ölkədə informasiya texnologiyaları sahəsində aparılan dövlət siyasətini təhsil və tədrisdə tətbiq etmək, Bakı Dövlət Universitetində təhsil və elmin naliyyətlərinin dünya müstəvisində yayılmasını və

təbliğini təmin etmək, BDU-nun beynəlxalq əlaqələrini daha da genişləndirmək və struktur bölmələrinin informasiya texnologiyaları sahəsində elmi-texniki və tədris potensialını yüksəltmək məqsədilə Universitetin yeni saytının təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilir. İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi hər iki sayta informasiyaların mütəmadi yerləşdirilməsi prosesini icra edir və həm istifadədə olan, həm də istifadəyə verilməyə hazırlanan saytlara məlumat axınını təmin edir.




**Cəmi: 1273**






**Cəmi: 10606**

Məlumat üçün bildirək ki, 2023-cü il ilə müqayisədə mediada yayımlanan məlumat sayında artım olub. 2023-cü il ərzində mediada 9626 məlumat tirajlanıb.

İl ərzində şöbənin əməkdaşları tərəfindən aylıq daycestlər hazırlanıb və təqdim olunub.

Universitetin rəsmi **sosial media** səhifələrinin işində də inkişaf tendensiyası əldə olunub, BDU haqqında yayımlanan bütün yazılar - müəllif yazıları, xəbərlər, analitik materiallar və elanlar operativ qaydada yayımlanıb, Universitetin sosial media hesabları effektiv formada idarə olunub.

**BDU-nun sosial media hesablarında aktiv dinamika müşahidə edilib.**

***"Telegram", "X" və "WhatsApp" sosial şəbəkələri***

***"X"*** sosial şəbəkəsində 2024-cü il 2155 nəfər izləyici ilə başlayıb və 2359 nəfər izləyici ilə bitib. İl ərzində **204** nəfər izləyici artımı olub.




| | İzləyici | Bəyənmə | Retvit | Rəy |
|---|---|---|---|---|
| Dekabr | 2359 | 90 | 15 | 25 |
| Yanvar | 2155 | 80 | 10 | 20 |

***“Telegram”*** sosial şəbəkəsində 2024-cü il 7303 nəfər izləyici ilə başlayıb və 9380 nəfər izləyici ilə bitib. İl ərzində **2077** nəfər izləyici artımı olub.




***“Whatsapp”*** sosial şəbəkəsində BDU-nun səhifəsi 18 oktyabr 2023-cü ildən fəaliyyətə başlayıb. 2024-cü il 146 nəfər izləyici ilə başlayıb və 2880 nəfər izləyici ilə bitib. İl ərzində **2734** nəfər izləyici artımı olub.




**“Facebook” və “Instagram”** sosial şəbəkələrində də izləyici sayı yüksələn xətt üzrə inkişaf edib. Sosial media səhifələrinə ünvanlandırılmış məktublar vaxtında cavablandırılıb, müraciət və təkliflərə operativ reaksiya verilib.

Belə ki, **“Facebook”** sosial şəbəkəsində 2024-cü ildən “Meta” yeni izləyici siyasətində “Bəyənmə” ölçü meyarının yerinə “İzləyici” ölçü meyarını əsas götürür. Hazırda bu rəqəm 31900-dür.

**“Instagram”** sosial şəbəkəsində isə 25800+ izləyici sayı 36% artaraq 40800-ə çatıb.






**“Facebook” üzrə userlərin şəhər/ölkə aktivliyi və yaş senzi qrafiki:**



**“Facebook” üzrə userlərin baxış, abunə, daxilolma və aktivlik qrafiki:**






**“Instagram” üzrə userlərin şəhər/ölkə aktivliyi və yaş senzi qrafiki:**



**“Instagram” üzrə userlərin baxış, abunə, daxilolma və aktivlik qrafiki:**









**“Threads” üzrə userlərin statistikaları:**




**Bakı Dövlət Universitetinin "Youtube" səhifəsinin 2024-cü il üzrə izləyici sayı:**






2024-cü ilin aprel ayından İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən ictimaiyyəti BDU-nun fəaliyyəti və həyata keçirilən yenilikləri ilə daha ətraflı tanış etmək üçün **"Ötən həftə BDU-da..."** adlı həftəlik videoicmalların hazırlanmasına başlanılıb.




İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi hesabat dövründə Universitetlə bağlı KİV-də işıq üzü görmüş məqalələrin **monitorinq və statistikasını** apararaq istiqamətlər

müəyyənləşdirir. Müxtəlif səpkili materialların təhlili göstərir ki, kütləvi informasiya vasitələri Bakı Dövlət Universitetinin həyatında baş verən hadisələri, ictimai maraq kəsb edən hər bir faktı diqqət mərkəzində saxlayıb, bu hadisə və faktların oxuyuca, tamaşaçıya, dinləyiciyə çatdırılmasına xüsusi səy göstərib.

Eyni zamanda BDU alimlərinin televiziya kanallarında yayımlanan proqramlarda iştirakı təmin olunub. Hesabat dövründə **60-a yaxın** televiziya çəkilişi həyata keçirilib, bu çəkilişlər şöbə əməkdaşları tərəfindən müşayiət edilib.

Bu il ərzində müxtəlif media orqanları tərəfindən ünvanlanan **300-dək sorğuya** cavab verilib. Eyni zamanda bu ildən etibarən sorğuların daha operativ cavablandırılması, sistemləşdirməsini təmin etmək üçün vahid baza formalaşdırılıb. Sorğuların mütəmadi qeydiyyatı aparılır, sorğunun cavabları da bazaya daxil edilir.

| **Bakı Dövlət Universitetinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinə 2023-cü ildə daxil olan sorğular** | |
|---|---|
| **Ümumi** | **TV çəkilişləri** |
| **300-dək sorğu daxil olub** | **60-a yaxın TV çəkilişi həyata keçirilib** |

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar BDU-da hazırlanan Tədbirlər Planına uyğun olaraq Universitetdə görülən işlər, həmçinin professor-müəllim heyətinin əlaqədar mövzular üzrə yazıları müxtəlif media orqanlarında işıqlandırılıb. Bununla yanaşı, il ərzində Şöbə tərəfindən BDU alimlərinin Qərbi Azərbaycan və onun tarixi həqiqətləri, sorqırımı cinayətləri və II Qarabağ müharibəsindən sonrakı reallıqlara dair araşdırma, şərh və məqalələrinin müxtəlif KİV-lərdə yayımlanması təmin olunub.

2024-cü ildə Bakı Dövlət Universitetinin yaradılmasının 105 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı çərçivəsində keçirilən təqdimatlar və müxtəlif tədbirlər mediada geniş işıqlandırılıb, ictimaiyyətə təqdim olunub.

BDU-nun 105 illik yubileyi çərçivəsində BDU və AZƏRTAC-ın birgə layihəsi həyata keçirilib. Belə ki, AZƏRTAC-da BDU-nun 16 fakültəsinin hər birinin zəngin tarixi, tədris və elmi fəaliyyəti, beynəlxalq uğurlarını əks etdirən məqalələr hazırlanaraq yayımlanıb.

AZƏRTAC

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**Bakı Dövlət Universiteti (BDU) və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) birgə layihəsi kimi BDU-nun 105 illik yubileyi çərçivəsində Universitetin 16 fakültəsinin tarixinə aid yazıların https://azertag.az/ -da yayımlanması**

| | |
|---|---|
| 1. | Bakı Dövlət Universitetinin yaşıdı – Filologiya fakültəsi |
| 2. | BDU-105: Nobel mükafatçısının təhsil aldığı, “TEKNOFEST” qaliblərini yetişdirən Fizika fakültəsi |
| 3. | BDU – 105: Zəngin ənənələri olan Tarix fakültəsi |
| 4. | BDU-105: Ənənələrə söykənən, müasir çağırışlara cavab verən İnformasiya və sənəd menecmenti fakültəsi |
| 5. | BDU-105: Milli bioloqların yetişdirilməsində əvəzsiz xidmətlər göstərən Biologiya fakültəsi |
| 6. | BDU-105: Milli jurnalistikamızın 55 yaşlı ocağı |
| 7. | BDU-105: Əməkdaşlarının əksəriyyəti öz məzunları olan Coğrafiya fakültəsi |
| 8. | Azərbaycanda yüksəkixtisaslı kimyaçılar hazırlayan elm mərkəzi |
| 9. | BDU-105: Peşəkar IT mütəxəssisləri hazırlayan Tətbiqi riyaziyyat və kibernetika fakültəsi |
| 10. | BDU-105: Şərqşünaslıq fakültəsi - tarix və müasirlik arasında körpü |
| 11. | BDU-105: Azərbaycan və xarici ölkələr üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayan Geologiya fakültəsi |
| 12. | BDU-105: Azərbaycanda riyaziyyat, mexanika üzrə elmi məktəblərin yaranmasında önəmli rol oynayan fakültə |
| 13. | BDU-105: Peşəkar diplomatlar və iqtisadçılar yetişdirən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi |
| 14. | BDU-105: Prezident təqaüdçülərinin sayına görə ölkədə birinci yerdə olan Hüquq fakültəsi |
| 15. | BDU – 105: Azərbaycanda və dünyada ekoloji problemləri araşdıran Ekologiya və torpaqşünaslıq fakültəsi |
| 16. | BDU-105: Azərbaycanın sosial inkişafı üçün kadrlar hazırlayan Sosial elmlər və psixologiya fakültəsi |

Bakı Dövlət Universitetinin (BDU) İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin təşkilatçılığı ilə 2024-cü il oktyabrın 8-də tələbələr arasında BDU-nun 105 illik yubileyi münasibətilə **“105 yaşlı elm və təhsil məbədi” adlı esse müsabiqəsi** elan edilib.

| Bakı Dövlət Universitetinin 105 illik yubileyi münasibətilə elan etdiyi “105 yaşlı elm və təhsil məbədi” adlı esse müsabiqəsi haqqında | |
|---|---|
| **Ümumi** | **QALİBLƏR** |
| **39 esse qəbul edilib** | **3** |

Müsabiqədə BDU-nun 39 tələbəsi iştirak edib. Təqdim olunmuş esselər müsabiqə komissiyası tərəfindən qiymətləndirilib. Müsabiqə komissiyasında BDU-nun Jurnalistika, İnformasiya və sənəd menecmenti, Filologiya fakültələrinin kafedra müdirləri Cahangir Məmmədli, Knyaz Aslan, Bəylər Hacıyev təmsil olunub. Noyabrın 7-də müsabiqənin nəticələri açıqlanıb. Müsabiqə komissiyasının qərarı ilə I yerə Tarix fakültəsinin II kurs tələbəsi Zivərxanım Məmmədova, II yerə Filologiya fakültəsinin III kurs tələbəsi Xədicə İmanlı, III yerə Coğrafiya fakültəsinin II kurs tələbəsi Varis Əhmədlinin esseləri layiq görülüb.

BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatları, BDU-nun tanınmış məzunları ilə baş tutan görüşlər də mediada ətraflı işıqlandırılıb. BDU-nun 105 illik yubileyi çərçivəsində silsilə şəkildə keçirilən fakültələrin təqdimatlarına medianın dəvət edilməsi, bu tədbirlərin ictimailəşməsi, onların foto və video kontentlərinin hazırlanaraq, Universitetin rəsmi veb-sayt və sosial şəbəkə hesablarında yayımlanması da İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin gördüyü işlərə aiddir.

11-22 noyabr tarixlərində Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim dəyişmələri üzrə tərəflər konfransının çərçivə konvensiyasının 29-ci sessiyası (COP29) çərçivəsində BDU əməkdaşlarının və tələbələrinin bu mötəbər tədbirdə iştiraklarına dair yazılar hazırlanıb və ictimaiyyətə təqdim olunub.

2023/2024-cü tədris ilinin qış və yaz imtahan sessiyaları dövründə BDU-nun sosial media hesablarında "Qış/yaz imtahan sessiyasına dair müraciət, təklif və iradlar" mövzusunda, COP29 dövründə tədrisin distant yolla təşkilinə dair mövzusunda tələbələr arasında sorğular keçirilib. BDU-nun ümumilikdə 600-ə yaxın tələbəsi (ilk sorğuda-395; ikinci sorğuda-164, sonuncu sorğuda 15) sorğuda iştirak edərək təkliflər verib. Həmin təkliflər qruplaşdırılaraq BDU rəhbərliyinə təqdim edilib.

2024-cü il ərzində BDU-nun qocamal alim, professorlarının yubileylərinə həsr olunan Respublika konfranslarının mediada işıqlandırılması, müsahibələrin təşkili təmin olunub. Eyni zamanda Universitetin müxtəlif sahələr üzrə ixtisaslaşmış professor-müəllim heyətinin sosial yüklü məsələlər üzrə televizya və informasiya agentliklərinə müsahibələri, yazılarının, araşdırmalarının dərci təmin olunub. Həmçinin Bakı Dövlət Universitetinin adını ölkəmizdən xaricdə təmsil edən və beynəlxalq miqyaslı böyük uğurlara imza atan tələbələrimiz haqqında məlumatların mətbuatda tanınması işi də təşkil edilib.

İl ərzində şöbə müxtəlif media subyektləri ilə əlaqələrini daha da gücləndirib və Universitet ilə əməkdaşlıq mühiti yaradılıb.

Aprel ayından etibarən BDU-nun fəaliyyəti ilə ictimaiyyətin daha yaxından tanış olması məqsədilə Universitetin sosial media hesabları üçün həftəlik video icmalların hazırlanmasına başlanılıb.

**"Azedu.az" təhsil portalı 11 dekabr 2024-cü il tarixindən "İlin ən yaxşı universitet sözçüsü" səsverməsini təşkil edib. Nəticələrə əsasən, BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva 34.8 faiz səslə I yeri qazanıb**




**Təkliflər:**

- Şöbənin əməkdaşlarının səriştə və bacarıqlarının daha da təkmilləşdirilməsi;
- BDU haqqında mənfi tendensiyalı yazıları neytrallaşdırmaq üçün tədbirlər görmək, həmin media qurumları ilə sıx işləmək;
- Digər ali məktəblərin təcrübəsini müntəzəm izləmək, rəqabətdə üstünlüyə nail olmaq;

- Mətbuatı BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri, sosial həyatı ilə daha dolğun tanış etmək üçün vaxtaşırı təlim və seminarların keçirilməsi, “açıq qapı” günlərinin təşkili;
- Tələbə, əməkdaş və ictimaiyyət nümayəndələri arasında mütəmadi sorğuların davam etdirilməsi, təkliflərin sistemləşdirilərək təqdim olunması;
- Daxili kommunikasiya sistemini təkmilləşdirmək və inkişaf etdirmək;
- Elmin populyarlaşdırılması istiqamətində fəaliyyəti təşkil etmək, mühüm elmi hadisələrlə bağlı Universitet alimlərinin məqalələrini ictimaiyyətə çatdırmaq;
- Müxtəlif sektorların (dövlət, özəl, QHT) nümayəndələri ilə əməkdaşlıq nəticəsində meydana gələcək yeni ideyaların reallaşdırılması;
- Böhran kommunikasiyası ilə bağlı işi gücləndirmək;
- Kommunikasiya prosesinin davamlılığının təmin edilməsi üçün müxtəlif görüşlərin keçirilməsini təmin etmək;
- Media və ictimaiyyət nümayəndələri ilə əlaqələri daha da intensivləşdirmək, Universitetin müsbət piarına xidmət edən xəbər və məlumatların sayını daha da çoxaltmaq;
- Universitetin daxili qurumları ilə şöbənin təmaslarının daha da sıxlaşdırılması;
- BDU-da yerinə yetirilən elmi tədqiqatlar, elmi seminarlara dair xəbərlərin daha dolğun, mövzu tam açılmaqla mətbuata təqdimatı;
- Ayrı-ayrı elm sahələri üzrə BDU alimlərinin mətbuatda ekspert kimi çıxışlarının çoxaldılmasını təmin etmək;
- Azərbaycan mətbuatının 150 illik yubileyi ilə bağlı BDU-da Tədbirlər Planının hazırlanması və silsilə tədbirlərin keçirilməsi;
- Azərbaycan mətbuatının 150 illik yubileyi ilə əlaqədar qəzet redaktorları, agentlik və televiziya rəhbərləri və dövlət müəssisələrinin ictimaiyyətlə əlaqələrinə məsul şəxsləri ilə görüşlərin təşkil edilməsi;
- BDU-nun müxtəlif struktur bölmələrinə mediaturların təşkili.